# Nizami rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər



**Son dövrlər dünyada və regionda, yaşanan iqtisadi, siyasi, ictimai, hərbi, dini və irqi zəmində böhran dünya dövlətlərinin sosial-iqtisadi inkişafına əngəllər yaradır. Ancaq Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən uğurlu daxili və xarici siyasət nəticəsində yaranmış vəziyyət qonşu dövlətlərdən fərqli olaraq, Azərbaycanın iqtisadiyyatına ciddi təsir etmir.**

Qeyd etdiyimin isbatı kimi Müstəqil Dövlətlər Birliyinin əksər ölkələrinin, xüsusilə Rusiyanın, Qazaxıstanın, həmçinin qardaş Türkiyənin milli valyutalarının çoxdan bəri üzən valyuta rejiminə keçdiyi halda Azərbaycan manatı öz sabitliyini qoruyub saxlayır. Təbii ki, manatın öz dəyərini sabit saxlaması dayanıqlı iqtisadi inkişafın nəticəsidir.

Son dövrlər regionda və dünyada baş verən iqtisadi-siyasi proseslərin fonunda yuxarıda qeyd etdiyim kimi, Azərbaycan manatının sabit qalması, bunun nəticəsində də sosial layihələrin icrasının davam etdirilməsi, inkişaf proqramlarının hazırlanması sahibkarlığın inkişafına təkan verir, şəhər, rayon, qəsəbə və kəndlər abadlaşdırılır. Qeyd etmək yerinə düşər ki, aparılan abadlıq-quruculuq işləri, yeni iş yerlərinin açılması baxımından paytaxt şəhəri olan Bakı öndədir. Bu gün şəhərin küçələrini gəzərkən valeh olmamaq mümkün deyil. Çünki aparılan abadlıq-quruculuq işləri çox uğurlu icra edilib. Şəhərin tarixi binaları, abidələri bərpa edilərkən yeni inşa edilmiş müasir arxitektura nümunələrindən istifadə edilməsi harmoniya təşkil edib.

Günü-gündən gözəlləşən paytaxtımızda əhalinin rifahının yüksəldilməsi üçün bir sıra mühüm tədbirlər görülüb, şəhər ərazisində yeni-yeni ictimai iaşə obyektləri istifadəyə verilib. Bakı və onun ətraf qəsəbələrində kiçik-iri sahibkarlıq obyektləri öz fəaliyyət vektorlarını genişləndirərək iqtisadiyyatımıza öz töhfələrini verirlər. Belə iri sahibkarlıq obyektləri də ölkənin iqtisadi potensialının formalaşmasında önəmli rol oynayır. Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlətimizin başçısının da vurğuladığı kimi, bu il Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir: "Bu, özlüyündə böyük göstəricidir. Çünki dünyada və bölgədə gedən proseslər göz qabağındadır. Həm bölgədə, həm Avropada böhran yaşanır, iqtisadi, hərbi, siyasi böhran. Belə şəraitdə iqtisadi inkişafa nail olmaq, əlbəttə ki, böyük nailiyyətdir. Bunun bir səbəbi var. O da ondan ibarətdir ki, Azərbaycanda düşünülmüş, müstəqil siyasət aparılır. Biz öz yolumuzla gedirik. Bu yol inkişaf yoludur, tərəqqi yoludur və bu yolda böyük nailiyyətlərə imza atmışıq".

Xatırladım ki, Prezident İlham Əliyev nitqinin davamında qeyd etmişdir ki, ölkə iqtisadiyyatına bütün mənbələrdən 16 milyard dollar sərmayə qoyulub. Onlardan 9 milyardı daxili, 7 milyardı xarici sərmayədir. Bunun çox gözəl göstərici olduğunu vurğulayan dövlətimizin başçısı ölkə iqtisadiyyatının 3,7 faiz artdığını, qeyri-neft iqtisadiyyatının 6 faizdən çox yüksəldiyini və qeyri-neft sektorunun ümumi daxili məhsulun 70 faizini təşkil etdiyini, həmçinin sənaye istehsalının 2,1 faiz, qeyri-neft sənayesinin 10 faizdən çox artdığını, kənd təsərrüfatında isə 6,7 faiz artım olduğunu əlavə edib.

Paytaxt Bakının inkişafda olan rayonlarından biri də Nizami rayonudur. Bakı şəhərinin perspektiv inkişafı ilə bağlı həyata keçirilən irimiqyaslı və məqsədyönlü tədbirlər Nizami rayonunun da simasını dəyişir, onun abad və müasir rayon kimi daha da gözəlləşməsinə böyük imkanlar yaradır.

Məlumat üçün bildirək ki, Nizami rayonu 1980-ci ilin noyabr ayında yaradılıb. Vaxtilə iki rayonun - indiki Xətai və Nərimanov rayonları ərazisindən ayrılmaqla yaradılan rayon Nərimanov, Sabunçu, Suraxanı və Xətai rayonlarının inzibati əraziləri ilə əhatə olunur. Rayonun ərazisi 19,6 kvadratkilometr, əhalisi isə 183 min nəfərdən artıqdır.

Hazırda 22 orta ümumtəhsil məktəbi olmaqla bir sıra təhsil müəssisələri, o cümlədən Uşaq-Gənclər və Texniki Yaradıcılıq mərkəzləri, 20 uşaq bağçası, 1 uşaq evi, Kar uşaqlar üçün 2 respublika internat məktəbi, 2 peşə liseyi, 1 peşə məktəbi, 2 kollec və özəl ali təhsil ocağı olan Xəzər Universiteti yerləşir. Rayon ərazisində 9 xəstəxana, 13 ambulator poliklinika fəaliyyət göstərir.

6 stadion, 8 idman-sağlamlıq kompleksi, 13 №-li İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi əhalinin, xüsusilə də gənclərin sağlam həyat tərzinin təminatına xidmət edir və bir sıra ictimai-iaşə obyektləri fəaliyyət göstərir. Bundan əlavə Bakı və ətraf qəsəbələrdə olduğu kimi, Nizami rayonu ərazisində də abadlıq və yenidənqurma işləri aparılır, sakinlərin istirahəti, uşaqların əylənməsi üçün parklar salınır. Qeyd etmək yerinə düşər ki, bu gün Nizami rayonunun gənc və yeniyetmə sakinlərini dövlət siyasətinə uyğun olaraq pis vərdişlərdən kənarda tutmaq, idmana marağını artırmaq və istirahətini təmin etmək üçün binaların qarşısında idman meydançaları tikilib, uşaqlar üçün sürüşkənlər quraşdırılıb. Bunun nəticəsidir ki, gənc və yeniyetmələr asudə vaxtlarını da zərərli vərdişlərdən imtina edərək futbol, basketbol, voleybol kimi idman oyunları ilə keçirirlər. Körpələr və azyaşlı uşaqlar isə binaların həyətində quraşdırılmış attraksionlarda həm əylənir, həm də təmiz hava qəbul edərək sağlamlıqlarını möhkəmləndirirlər. Əhalinin sosial-iqtisadi rifahı ilə yanaşı, sağlamlığının qeydinə qalan rayon rəhbərliyi binaların qarşısında, parklarda yaşıllıqlar salır.

Qeyd etmək yerinə düşər ki, Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov Prezident İlham Əliyevin siyasətinə müvafiq olaraq rayonun abadlaşdırılmasına, inkişafına və sakinlərin rifahının yaxşılaşdırılmasına xüsusi diqqət göstərir. Belə ki, o, oktyabrın 21-də Nizami Rayon İcra Hakimiyyətində 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağında rayonun abadlaşdırılması və qarşıda duran problemlərin aradan qaldırılması üçün aidiyyəti təşkilatlara müvafiq tapşırıqlarını verib.

Həmçinin A.Qasımov respublikada sahibkarlığın inkişafı məqsədilə son illər dövlət proqramları qəbul edildiyini, sahibkarlıq fəaliyyətinə mane olan yoxlamaların aradan qaldırılması və sahibkarlıq fəaliyyətinin lisenziya tələb olunan növlərinin sayının azaldılması, lisenziya verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərman imzaladığını qeyd edərək son vaxtlar baş verən bəzi neqativ halların sahibkarlıq fəaliyyəti ilə məşğul olanların haqlı narazılığına səbəb olduğunu, onların sahibkarlıq təşəbbüsünün reallaşmasına və daxili potensialdan daha dolğun istifadə edilməsinə imkan verilmədiyini söyləyib, bu sahənin inkişafına mane olan əsassız müdaxilələrin qarşısını almaq məqsədilə müvafiq tədbirlər görüləcəyini vurğulayıb.

Onu da qeyd edək ki, rayon sakinlərinin rifahını yaxşılaşdırmaq məqsədilə onlarla sıx ünsiyyətdə olan A.Qasımov təklif və şikayətləri şəxsən dinləyir, hərbi çağırışçıların müddətli həqiqi hərbi xidmətə yola salınmasında şəxsən iştirak edir.

Xatırladım ki, vaxtilə Nizami rayonunda iqtisadi baxımdan çox önəmli olan sənaye müəssisələri fəaliyyət göstərib. Həmin müəssisələr nəinki Bakı şəhərinin, eləcə də respublikanın iqtisadi potensialının formalaşmasında önəmli rol oynayıb. Yarandığı andan sənaye rayonu statusunu daşıyan Nizami rayonu bu gün də ənənəsinə sadiq qalmaqdadır. Belə ki, hazırda sənayenin müxtəlif sahələrini özündə birləşdirən Nizami rayonunda Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu, Elektron Hesablama Maşınları zavodu, Peyk Zavodu, "NJT-2000" firması, "Bakı Şərab-1" ASC, "Azərtunelmetrotikinti" SM-in Dəmir-Beton Konstruksiyaları Zavodu, "Körpü Tunel" ASC, "Bakı Diyircəkli Yastıq" ASC, "European-Tobacco Baku" ASC, "Bakı Yağ-Qida Sənaye" ASC, "Veysəloğlu" MMC, "Kaspi-Yıldız" MMC kimi müəssisələr, 18 bank filialı, Nizami Telefon Qovşağı, 7 rabitə şöbəsi, iri ticarət və iaşə mərkəzləri fəaliyyət göstərir.

Rayon ərazisində fəaliyyət göstərən "Veysəloğlu" MMC müasir holdinq kimi fəaliyyət göstərir. "Veysəloğlu Satış və Distribüter Şirkəti" və "Ulduz" şokolad fabriki də daxil olmaqla fəaliyyətini genişləndirir. Qida sənayesində dünyanın ən iri ölkələri olan Rusiya, Ukrayna, Belarus, Latviya, Almaniya, Polşa, Macarıstan, Danimarka, Portuqaliya, İtaliya, Vyetnam və s. kimi ölkələrlə əməkdaşlıq edir. Hazırda dünyanın 20-dən artıq ölkəsinin 100-dən çox fabriki ilə əməkdaşlıq edən "Veysəloğlu Satış və Distribüter Şirkəti"ndə və "Ulduz" fabrikində yüzlərlə işçi yüksək əməkhaqqı ilə çalışır ki, bunların da əksəriyyəti rayon sakinləridir.

Nizami rayonunun inkişaf konsepsiyasında idmanın inkişafına da xüsusi diqqət yetirilir. Belə ki, rayon ərazisində AFFA tərəfindən 20000 tamaşaçı tutumuna malik müasir tipli stadionun inşa olunması rayonda hətta beynəlxalq yarışların keçirilməsinə perspektiv yaratmış olur. Qeyd edək ki, bu il ölkəmizdə keçirilən birinci Avropa Oyunlarının əsas mərkəzi Nizami rayonunun ərazisinə yerləşib. Bu məqsədlə "Koroğlu" metrostansiyası ətrafında Olimpiada Kəndi salınıb, "Şəfa" stadionu əsaslı təmir edilib, Bədii Gimnastika Kompleksi tikilib istifadəyə verilib. "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na əsasən, Gimnastika Kompleksinin, onun yanında məşq zalının və köməkçi qurğuların tikintisi başa çatdırılaraq birinci Avropa Oyunları zamanı istifadə edilib. 61 nömrəli məktəbin ərazisində süni örtüklü voleybol, basketbol və futbol meydançaları qurulub. Həmçinin rayonun daxili resursları hesabına şəhər əhəmiyyətli infrastruktur layihələrə də xüsusi diqqət yetirilir, abadlıq-quruculuq işləri aparılır. Xüsusən yol infrastrukturunun yenidən qurulması sahəsində çox böyük işlər görülür. Belə ki, uzunluğu 1375 metr, eni isə 26,5 metr olan, Mikayıl Əliyev küçəsinin Mehdi Abbasov küçəsi ilə Babək prospekti arasında yerləşən yolun bir hissəsinin təmiri yekunlaşıb, Mikayıl Əliyev küçəsinin Babək prospektinə doğru olan 1450 metrlik hissəsinin 700 metr ərazisində və Bəkir Çobanzadə küçəsinin Mehdi Abbasov və Rüstəm Rüstəmov küçələri arasında olan, uzunluğu 924 metr, ortalama eni isə 15 metr olan hissəsində təmir-tikinti işləri aparılır.

**Məhərrəm Ağalaroğlu,**
***"İki sahil"***

**Yazı Nizami Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.**